**E.E.Zeynalov**
**AMEA Iqtisadiyyat Institutu, dokturant.**
**E-mail:elnurzeynalli.edu@gmail.com**
**UOT:338.242.4;JEL:E61,E65.**

# Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin təmin olunmasında valyuta məzənnəsinin rolunun qiymətləndirilməsi

***Xülasə***

*Tədqiqatın məqsədi – Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin təmin olunmasında valyuta məzənnəsinin rolunun qiymətləndirməkdir. Tədqiqatın metodologiyası - tədqiqat işində müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, sistemli yanaşma, analiz və sintez metodlarından istifadə edilib. Tədqiqatın tətbiqi əhəmiyyəti –tədqiqatda araşdırılmış əsaslı təhllər ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinə nail olmağa və iqtisadi səmərəliliyin yüksəltmək üçün, valyuta münasibətlərini tənzimlənməsi üçün istifadə edilə bilər. Tədqiqatın nəticələri –valyuta məzənələri xarici ticarətdə və beynəlxalq aləmdə baş verən iqtisadi-siyasi proseslərdən aslı olaraq dəyişir. Buna görə də valyuta məzənnəsinin səmərəli tətbiqi milli məhsulların rəqabətqabiliyyətinə təsir etdiyi üçün məzənnənin səmərəli tətbiqi yerli istehsalı stimullaşdıra bilər. Tədiqiqatın orijinallığı və elmi yeniliyi – nominal və real effektiv valyuta məzənnəsinin hesablanması idxal,ixrac üzrə qiymət indeksləri əsasında hesablanmalar həyata keçirilmişdir.*

***Açar sözlər**: valyuta məzənnəsi, real mübadilə məzənnəsi, qiymət indeksi, rəqabətqabiliyyətlilik, makroiqtisadi tarazlıq, valyuta rejmləri.*

## Giriş

Qloballaşan dünyada müxtəlif ölkələrin bir-birinə qarşılıqlı təsiri getdikcə artan templə davam edir. Ölkələrarası rəqabət böyüyür, genişlənir və bu proses artıq ölkələrin ayrı-ayrı iqtisadi sahələrinə deyil, eyni zamanda, ölkələrarası birliklər arasında da baş verir və yeni xüsusiyyətlər kəsb etməyə başlayır. Rəqabətin mövcudluğu bütövlükdə cəmiyyət miqyasında biznesi canlandırmaq, stimullaşdırmaq və səmərəliliyini yüksəltmək olduğundan nəticə etibarı ilə bu əhalinin həyat səviyyəsinin yüksəlməsinə və dinamik iqtisadi artım tempinə nail olunmasına imkan verir. Rəqabətqabiliyyətlilik probleminə nəzəri baxımdan yanaşdıqda aydın olur ki, bu problem iki səviyyədə; a) makro səviyyə - (ölkə, region və birliklər arasında), və b) mikro səviyyədə- (müəssisələr səviyyəsində) ayrı-ayrı istiqamətlər üzrə təhlil edilir[1.s.183].

## Rəqabətqabiliyyətlilik probleminin makroiqtisadi aspektləri

Empiriq tədqiqatlar göstərir ki, milli iqtisadiyyatın beynəlxalq rəqabətqabiliyyətinin artmasına təkan verə biləcək əsas makroiqtisadi parametrlərin roluna diqqət getdikcə artır. Bu parametrlər arasında ən mühümlərindən biri də valyuta məzənnədir. Hazırda valyuta məzənnəsi ixrac və idxalın rentabelliyinə, daxili qiymətlərin səviyyəsinə, ayrı-ayrı müəssisələrin və bütövlükdə ölkənin maliyyə vəziyyətinə, əhalinin həyat səviyyəsinə fəal təsir göstərir. Bu baxımdan manatın milli iqtisadiyyata təsirinin öyrənilməsi kifayət qədər aktuallıq kəsb edir. Rəqabətqabiliyyətlilik probleminin makroiqtisadi aspektləri araşdırılarkən buraya iki qrup məsələlər aid edilir: rəqabətqabiliyyətlilik probleminin qiymət aspektləri, rəqabətqabiliyyətlilik probleminin struktur aspektləri. Rəqabətqabiliyyətlilik probleminin qiymət aspektləri dedikdə bu ayrı-ayrı ölkələrdə formalaşmış daxili bazar qiymətlərinin səviyyəsi, strukturu, eləcədə qiymət müəyyənləşdirən amillərin tərkibindəki pay göstəriciləri və nisbi qiymətlərin iqtisadi artıma təsiri məsələlərini əhatə edir. Rəqabətqabiliyyətlilik probleminin struktur aspektləri dedikdə isə ayrı-ayrı ölkələrdə makroiqtisadi göstəricilərin dəyişmə meyllərini müəyyənləşdirən müxtəlif amillərin, o cümlədən milli iqtisadiyyatda əmək məhsuldarlığının səviyyəsi, institusional mühit, innovasiya qabiliyyətliliyi, insan potensialının inkişaf səviyyəsi və digər amillərin təhlil edilməsi və qiymətləndirilməsi nəzərdə tutulur.

Makroiqtisadi sabitliyin əsas parametrlərindən olan inflyasiyanın minimum səviyyəsinin təmin olunması və manatın nominal mübadilə məzənnəsinin dayanıqlığının təmin olunması tənzimlənmə mexanizlərinin əsas həflərindəndir. Belə hal üzən valyuta rejimi olamayan ölkələr üçün xüsusilə aktualdır. Ona görə də qeyd edilən parametrlər üzrə tənzimləmə mexanizmləri iqtisadiyyatın inkişafına səbəb olmalı və yerli məhsul istehsalçılarının zəruri rentabellilik göstəriciləri üzrə maraqlarının nəzərə alınmasına xidmət etməlidir. Ölkəmizdə rəqabətqabiliyyətlilik probleminin makro səviyyədə həm qiymət, həm də struktur problemlərinin olmasını müəyyən etmək üçün konkret tədqiqatların həyata keçirilməsi zəruridir. F.Ə.Qənbərov öz tədqiqatlarında göstərir ki, son illərdə qeyri-neft ixracının artım templərinin zəifləməsi struktur problemləri ilə xarakterizə olunduğunu qeyd etmişdir [2.s.181].

**Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin təmin olunmasında valyuta məzənnəsi, inflyasiya və qiymət indekslərinin rolunun təhlili**

Neft gəlirləri ilə bağlı Azərbaycan iqtisadiyyatına daxil olan vəsaitlər ölkədə infrastruktur sahələrinin və neft sektoru ilə bağlı bəzi istehsal sahələrin inkişafına səbəb olmuşdur. İnfrastruktur sahələri kimi nəqliyyat, rabitə, tikinti və s. inkişafını həmçinin, istehsalda isə ölkədə neft sektoru üzrə təbii üstünlüyə malik olmağımız da neft emalı sənaye sahələrinin, energetika və digər əhəmiyyətli sənaye sahələrinin inkişafına gətirib çıxarmışdır. İnkişaf edən infrastruktur və bəzi istehsal sahələri ilə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasının genişləndirilməsi baxımından zəruri olan iki mühüm istiqamət ölkədə həyata keçirilən iqtisadi siyasətin əsas prioritetləri kimi müəyyənləşdirilmiş və bu istiqamətlər ölkədə qəbul edilən dövlət proqramlarında bu və ya digər formada özünü göstərməkdədir. Həmin istiqamətlərə aiddir: yerli resurslara əsaslanmaqla kənd təsərrüfatı, yüngül və yeyinti sənayesi sahələrinin inkişaf etdirilməsi və bu əsasda idxalı əvəzləyəcək istehlak malları istehsalı milli iqtisadiyyatın maksimum özünü təminetmə səviyyəsinə nail olunması; "texnoloji inteqrasiya"-ya söykənərək elm tutumlu, sənaye sahələrinin inkişaf etdirilməsi. Bura maşınqayırma, elektronika, elektrotexnika, neftkimyası və digər sənaye sahələrinin inkişafı əsasında milli iqtisadiyyatın yenidən qurulmasıdır. Qeyd edilən bu iki prioritet istiqamət üzrə məqsədyönlü addımların həyata keçirilməsi zərərətə çevrilmişdir. Göstərilən bu iki sahə iqtisadiyyatın qeyri-neft sektorunu ətatə edir və hər iki prioritet inkişaf istiqaməti üzrə ölkədə makroiqtisadi tənzimləmə mexanizmlərinin də təkmilləşdirilməsini zəruri edir. Hal-hazırda ümumi iqtisadi tənzimləmədə qeyri-neft sektoru istehsal sahələrinin daxili bazar qiymətlərinə olan tələbləri kifayət qədər nəzərə alınmadığından yerli istehsalçılar, Azərbaycanın əsas ticarət tərəfdaşı olan ölkələrlə müqaisədə ilk növbədə qiymət baxımından mütəmadi olaraq qeyri-bərabər rəqabət şəraiti ilə üzləşirlər. Nəticədə isə bir sıra məhsul növləri üzrə rentabelli istehsalın təşkili və inkişafının təmin oluna bilməməsinin əsas səbəblərindən biri kimi çıxış edir. Başqa sözlə, milli iqtisadiyyatın rəqabətqabiliyyətli olmamasının səbəblərindən biri də qiymət amili çıxış edir. Qeyd edilən fikirə sübut olaraq ixrac, idxal üzrə qiymət indeksləri ilə qeyri-neft sektoru üzrə nominal və real effektiv valyuta məzənlərlərinin dinamikası da göstərir.

**Şəkil 1.**

**Nominal, real effektiv məzənnə ilə ixrac və idxal qiymətləri indeksinin dinamikası**



| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| İxrac üzrə qiymət indeksi | 0,53 | 0,52 | 6 | 7,7 | 0,8 | 1,2 | 1,3 |
| İdxal üzrə qiymət indeksi | 1,69 | 1,83 | 1,81 | 1,98 | 2,93 | 3,35 | 3,33 |
| Qeyri-neft sektoru üzrə real effektiv məzənnə | 107,6 | 86,3 | 89,8 | 95,4 | 95,9 | 97,1 | 109,2 |
| Qeyri-neft sektoru üzrə nominal effektiv məzənnə | 132,9 | 96,3 | 97,3 | 108,9 | 109,3 | 116,1 | 130 |

Mənbə:effektiv məzənnə üzrə qiymətlər www.cbar.az məlumatları ixrac və idxal üzrə qiymət indeksləri müəllif hesablamalarıdır.

Göstərilən səbəblər Azərbaycanda reallaşdırılan makroiqtisadi tənzimlənmə mexanizmlərinin, ilk növbədə inflyasiya səviyyəsinin, ikincisi monetar siyasətin, üçüncüsü fiskal siyasətin və nəhayyət dördüncüsü isə dövlət tərəfindən tənzimlənən qiymət-tarif amilləri üzrə xüsusilə də, enerji qiymətləri üzrə tənzimənmə məsələlərinin uclaşdırılmaması siyasətin həyata keçirilməsi nəticədə yerli istehsalçıların eləcədə, ixrac yönümlü istehsal sahələrinin inkişafına mənfi təsir edir. Hesab edirik ki, inlfyasiyanın struktur göstəricilərinin, manatın nominal və real mübadilə məzənnələri səviyyələrinin tənzimlənməsi zamanı yerli istehsalçıların bazar qiymətlərinə olan zəruri tələblərinin nəzərə alınması milli iqtisadiyyatın ixrac yönümlü sahələri üçün vacibdir. Başqa sözlə, idxal qiymətlərinin mənfi effektindən daxil istehsalçıların qorunması zərurətdir. Buna görə də müvafiq tənzimləmə mexanizmlərinin təhlil edilməsi, qiymətləndirilməsi və ölkənin milli iqtisadiyyatının sahələrinin tələblərinə uyğun təkmilləşdirilməsi

zəruridir. Qeyd edilənləri nəzərə alaraq sənaye və kənd təsərrüfatı üzrə istehsalçı qiymət indeksi ilə İQİ arasındakı əlaqəyə nəzər salmaq fikrimcə, əhəmiyyətlidir. Ikitərəfli mübadilə məzənnələrinin çatışmazlığı ondan ibarətdir ki, onları ölkənin ümumi rəqabətlilik səviyyəsinin göstəricisi kimi istifadə etmək mümkün olmur. Bu problemin həlli üçün nominal effektiv mübadilə məzənnəsindən (NEMM) istifadə edilir. Nominal effektiv mübadilə məzənnəsi ölkənin ticarət partnyorlarının ikitərəfli nominal mübadilə məzənnələrinin çəkili həndəsi orta qiymətidir. Aydındır ki, ölkənin xarici ticarətində (idxal və ya ixracında) böyük paya malik olan ölkələr onun rəqabət qabiliyyətinə daha böyük təsirə malikdir. NEMM-in dəyişməsi rəqabət qabiliyyətinin dəyişməsinin göstəricisi olsa da, o, rəqabətliliyin dəyişməsinin kafi göstəricisi deyil, çünki, o, ticarət edilən ölkələrdə qiymətlərin səviyyəsinin dəyişməsini nəzərə ala bilmir. Nominal effektiv mübadilə məzənnəsi (NEMM) ölkənin milli pul vahidinin (məsələn, manat) ticarət partnyorları olan ölkələrin milli pul vahidləri ilə ifadədə, həndəsi orta kəmiyyətidir və aşağıdakı kimi hesablanılır [3.s.65-66]:

$$NEMM_j = \prod_{i=1}^{m} e_{ij}^{q^{ij}}$$

Burada: j - valyuta məzənnəsi hesablanan ölkənin (Azərbaycan) indeksi (Az); i - ticarət partnyorları olan ölkələrin indeksi; m-j-cu ölkənin (Azərbaycanın) xarici ticarət partnyorlarının sayı; eij-j-cu ölkənin pul vahidinin i-ci ölkənin pul vahidinə mübadilə məzənnəsidir. Makro səviyyədə ölkənin bütün ticarət partnyorlarına qarşı rəqabət qabiliyyətinin dəyişməsini ölçə bilmək üçün «real effektiv mübadilə məzənnəsini (REMM)» hesablamaq lazımdır. NEMM kimi REMM də ikitərəfli RMM-rin çəkili həndəsi orta qiymətidir. NEMM halında olduğu kimi bu halda da REMM-in hesablanması üçün istifadə edilən çəkilər ölkənin xarici ticarət dəyişənləri, yəni ixracı, idxalı və ya xarici ticarət dövrüyyəsidir. Real effektiv mübadilə məzənnəsi (REMM) əmsalı aşağıdakı kimi hesablanır:

$$REME_j = \prod_{i=1}^{m} \left[e_{ij} \bullet P_j / P_i\right]^{q^{ij}}$$

Burada: $P_j$ – j-cu ölkədə (Azərbaycanda) istehlak qiymətləri indeksi, $P_i$ – i-ci ölkədə istehlak qiymətləri indeksidir. Beləliklə də verilmiş nəzəri yanaşma və Azərbaycan Respublikasının müvafiq məlumatları əsasında idxal üzrə nominal və real effektiv məzənnə üzrə valyuta indeksləri aşağıdakı kimidir.

**Cədvəl 1.**

**İdxal üzrə nominal və real effektiv valyuta məzənnələri**

| | Nominal effektiv məzənnə | Real effektiv məzənnə |
|---|---|---|
| **2017** | 0.32 | 0.87 |
| **2018** | 0.26 | 0.18 |
| **2019** | 0.20 | 0.15 |
| **2020** | 0.28 | 0.32 |
| **2021** | 0.26 | 0.49 |

Qeyd: cədvəl müəllif tərəfindən hesablanıb.

İlk növbədə bildirək ki, metodologiyaya əsasən real və nominal effektiv məzənnə rəsmi nominal məzənnə ilə üst-üstə düşməyə bilir. Eyni zamanda valyutalar üzrə alınan məzənnələr 100%-də vurlur. Alınan nəticələr göstərir ki, 2017-ci ildə manatın nominal effektiv məzənnəsi real effektiv məzənnənin 64%-ni təşkil edib. Bu o, deməkdir ki, həmin ildə manatın ucuzlaşmasının qarşısının alınması üçün Mərkəzi Bank baha çox xarici valyuta satmaq məcburiyyətində olub. Doğurdan da 2015-ci ildə olan valyuta devalvasiyasından sonra 2016-cı ildə milli valyutanın nominal məzənnəsi 1 ABŞ dolları= 1.77 manat və 2017-ci ildə isə 1 ABŞ dolları= 1.72 manat olmuşdur. Göründüyü kimi belə vəziyyət qeyri-neft ixracı üçün səmərəli olmuşdur. Son 2020-ci il və 2021-ci illərdə yenə də real effektiv məzənnə az da olsa nominal effektiv məzənnədən fərqlənmişdir. Konkret olaraq 2020-ci ildə nominal effektiv valyuta məzənnəsi real effektiv valyuta məzənnəsinin 88% ni təşkil etmişdirsə, 2021-ci ildə isə bu göstərici cəmi 54% olmuşdur. Belə hal isə idxalın yerli istehlakçılar baxımından cəlbedici görünməyinə səbəb olmuşdur.Başqa sözlə, 2021-ci ildə Mərkəzi Bankın valyuta bazarına ciddi müdaxiləsi olmuşdur. İxrac üzrə nominal və real effektiv valyuta məzənnərinin təhlili də maraqlıdır. Bu baxımdan aşağıdakı cədvələ nəzər salaq.

**Cədvəl 2.**

**İxrac üzrə nominal və real effektiv valyuta məzənnələri**

| | Nominal effektiv məzənnə | Real effektiv məzənnə |
|---|---|---|
| **2017** | 0.81 | 3.71 |
| **2018** | 0.71 | 0.06 |
| **2019** | 0.63 | 0.81 |
| **2020** | 0.80 | 1.46 |
| **2021** | 0.66 | 1.75 |

Qeyd: cədvəl müəllif tərəfindən hesablanıb.

İxrac üzrə nominal və real effektiv valyuta məzənnələrin təhlili göstərir ki, 2017-ci ildə real effektiv məzənnə daha yüksək xarakterizə olunmuşdur. Belə vəziyyət 2017-ci ildə qeyri-neft ixracın inkişafı üçün səmərəli olmuşdur. Lakin son 2020-2021-ci illərdə nominal effektiv məzənnə ilə real effektiv məzənnə arasında kəskin fərq var. Bu o deməkdir ki, təsüflər olsun ki, milli valyutanın məzənnəsinin müəyyən olunmasında daha çox ixracın stimullaşdırılması üzrə valyuta siyasəti yürüdülmür. Hesab edirik ki, idxal üzrə tərəfdaş ölkələrdə formalaşmış daxili bazar qiymətlərinin səviyyəsi, strukturu, eləcədə qiymətləri müəyyənləşdirən amillərin xüsusi çəkiləri və nisbi qiymətlərin iqtisadi artıma təsiri səmərəli formalşadığından rəqabətqabiliyyətlilik baxımından qiymət aspektlərində daha uduşlu olublar. Ölkəmizdə kənd təsərrüfatı, emal sənayesinin, eləcədə yüngül və yeyinti sənayesi sahəlirində idxalı əvəzləyəcək əmtəə növlərinin istehsalının bu vaxta qədər səmərəli təşkil olunmaması eləcədə, inkişaf etdirilməməsinin səbəblərindən biri də fikrimcə, milli sahibkarların minimum rentiabellik səviyyəsini təmin edə bilməməsidir. Bu da rəqabətqabiliyyətliliyin qiymət aspektlərindən asılılığı ilə bağlıdır. Nəzərə almaq lazımdır ki, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin təmin olunmasında valyuta məzənnəsi öyrənilərkən real effektiv valyuta məzənnəsinin milli iqtisadiyyatın rəqabətqabiliyyətinə təsirini məhz İQİ-nə əsaslanaraq söyləyirlər. Bu baxımdan nominal milli valyutanın məzənnəsi ilə orta illik inflyasiya arasında əlaqəyə nəzər salmaq maraqlıdır.

**Şəkil 2.**

**Nominal valyuta məzənnəsi ilə inflyasiya arasında əlaqə**




Mənbə: şəkil www.cbar.az məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

Şəkil 2.-dən göründüyü kimi 2015-ci ildə ölkədə inflyasiya 4% olduqda milli valyutanın nominal məzənnəsi demək olar ki, əvvəlki illə müqayisədə 100% ucuzlaşmışdır. Təbii olaraq inflyasiyanın inflyasiyanın valyutaya keçid effekti 2016-2017-ci illərdə davam etmiş və yalnız 2018-ci ildə valyutanın məzənnəsi və buna müvafiq olaraq inflyasiyanın səviyyəsi cilovlanmışdır. Şəkil 3-dən göründüyü kimi İQİ kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indesinə adekvat olsada, sənaye məhsullarının istehsalçı qiymətlərinə uyğun olmamışdır. Digər tərəfdən onu da bildirək ki, son 2020-ci ildə sənaye məhsulları üzrə istehsalçı qiymət indeksinin aşağı olması səbəblərindən biri də codid-19 qlobal pandemiya ilə əlaqədardır. Onu da bildirmək lazımdır ki, İQİ-nin kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri indeksinə müvafiq olması son illərdə ölkənin kənd təsərrüfatı üzrə ixracının həcmini artmasına müsbət təsir etmişdir. Təsadüfi deyildir ki, kənd təsərrüfatı məhsullarının ixracı 600 mln. ABŞ dolları səviyyəsinə və ÜDM-də kənd təsərrüfatının xüsusi çəksi isə 7% çatmışdır. Lakin, 2021-cilin sonunda enerji daşıyıcılarının qiymətlərinin artması ishesal olunan məhsul xərclərinin həcminin artmasına gətirib çıxarır ki, bu da ölkədə

ümumi istehsalın həcminə mənfi təsir göstərməsi ehtimalını artırır. Əgər ölkədə enerjidaşıyıcıları üzrə tariflərinin dəyişməsi strateji mahiyyət daşıyırsa və bu dünya bazar qiymətlərinin daxili bazarda təmin edilməsi nəzərdə tutulursa, onda bu halda daxili bazar qiymətlərinin də artırılması daxili tələbat və əhalinin gəlirlərinin müvafiq surəti və artım templəri beynəlxalq səviyyəyə uyuğunlaşdırılması əhəmiyyətli olardı.

**Şəkil 3.**

**Qiymət indeksləri üzrə dinamika**



| | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|
| Sənaye məhsulları istehsalçı qiymət indeksi | 136,8 | 126 | 103,2 | 75,2 |
| Kənd təsərrüfatı məhsulları istehsalçı qiymətləri indeksi | 111,9 | 102,0 | 104,4 | 105,6 |
| İstehlak qiymətləri indeksi | 112,9 | 102,3 | 102,6 | 102,8 |

Mənbə: şəkil https://www.stat.gov.az/ məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

Empiriq yanaşmalar göstərir ki, Azərbaycan iqtisadiyyatında inflyasiya proseslərinin tənzimlənməsində monetar mexanizmlərin rolu daha yüksəkdir. Buna görədə monetar mexanizlərlə bəzi makroiqtisadi göstəricilərin nəticələrinə nail olmaq daha asan olur. Belə göstəricilərə inflyasiyanın hədəflənməsi, ölkədə iqtisadi aktivliyin həddi və eləcədə digər makroiqtisadi göstəriciləri bura aid etmək olar. Milli milli iqtisadiyyatın həm rəqabətqabiliyyətliliyinin təmin olunmasında, həm də inflyasiya səviyyəsinin müəyyən olunmasında faiz dərəcəsi, kapitalın beynəlxalq hərəkəti, dövriyyədə pul kütləsinin həcmi, büdcə xərclərinin və büdcə kəsirinin ÜDM-də xüsusi çəkisi önəmli paya malikdir. Bu baxımdan aşağıdakı cədvələ nəzər salmaq məqsədəmüvafiqdir.

**Cədvəl 3.**

**2016-2021-ci illər ərzində iqtisadiyyatda inflyasiya və onu müəyyənləşdirən makroiqtisadi parametrlərin dəyişmə meylləri**

| Göstəricilər \ illər | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| **İQİ** | 12.4 | 12.9 | 2.3 | 2.6 | 2.8 | **6.7** |
| M2 pul aqreqatının ÜDM-də payı (faizlə) | 19.1 | 17.8 | 18.3 | 22.3 | 28.1 | **25.7** |
| Büdcə xərclərinin ÜDM-də payı (faizlə) | 29.6 | 25.1 | 28.5 | 29.9 | 36.5 | **29.5** |
| AMB-ın yenidən maliyyələşdirmə üzrə faiz dərəcəsi | 15.0 | 15.0 | 9.75 | 7.50 | 6.25 | **7.25** |
| xarici ticarət balansının saldosu mln. ABŞ dolları ilə | **4,968.5** | **6,536.7** | **8,023.2** | **5,967.7** | **3,009.9** | **2,061** |

Mənbə: cədvəl www.cbar.az məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

Empirik yanaşmalar təsdiq edir ki, dövriyyədə pul kütləsinin artımı, büdcə xərclərinin artımı, Mərkəzi Bankın yenidən maliyyələşdirmə dərəcəsi, əhalinin real gəlirlərinin artımı və ticarət balansının vəziyyəti milli valyutanın məzənnəsinə təsir göstərir. Cədvəl məlumatları göstərir ki, ölkədə geniş mənada pul kütləsinin həcmi 2020-ci ildə təhlil olunan dövrdə ən yüksək səviyyədə olmuşdur ki, bu da ÜDM-də xüsusi çəkisi 28,1% təşkil etmişdir. Xatırlatmaq istərdik ki, bu göstərici inkişaf etmiş ölkələrdə 40%-dən az deyil. Empiriq yanaşmalar təsdiq edir ki, dövriyyədə olan pul kütləsinin qıtlığı şəraitində rəqabət şəraitinin kəskinləşməsi amili meydana çıxmır. Eyni zamanda, büdcə xərclərinin ÜDM-də xüsusi çəkisi ölkəmizdə 2020-ci ildə təhlil olunan dövrdə ən yüksək həddə olduğu halda, Avropa birliyi ölkələrində bu göstərici 45%-dən az deyil. Həmçinin qeyd edilən göstərici 2021-ci ildə ABŞ-da 46% Çində isə 39% səviyyəsində olmuşdur. Onu da bildirək ki, Azərbaycan Mərkəzi Bankının yenidən maliyyələşdirmə üzrə faiz dərəcəsinin də yüksək olması kommersiya banklarının iqtisadiyyatı daha optimal kreditləşməsinə imkan vermir. Təkcə bir faktı qeyd edək ki, sahibkarlığın inkişaf fondu tərəfindən sahibkarlara verilən kredit faizinin 7% həddindədir. Hesab edirik ki, daxili bazar qiymətlərinin formalaşması baxımından və xarici iqtisadi fəaliyyətə təsir istiqamətləri baxımdan reallaşdırılan iqtisadi siyasətlərin fərqli olması iqtisadiyyatın

struktur sahələrinin səmərəli inkişaf etməməsinə səbəb olmuşdur. 2017-2020-ci illər ərzində qeyri-neft sektoru istehsal sahələrinin artım sürəti üzrə formalaşmış meyllər iqtisadiyyatda məcmu təklifin daxili komponentinin xüsusilə də qeyri-neft sənayesi və kənd təsərrüfatı məhsulları istehsalı üzrə artım sürəti əhəmiyyətli dərəcədə məcmu tələbin daxili komponentinin xüsusilə də son istehslak xərclərinin artım sürətindən xeyli geri qalmamışdır. İstənilən ölkədə aparılan islahatların nəticələri eyni zamanda iqtisadiyyatda rəqabətqabiliyyətlilik mühitinin formalaşdırılması təkcə təsərrüfatda dövlət və özəl sektorlarının payının nisbətləri ilə müəyyən edilmir. Bu ilk növbədə daxili bazarda formalaşmış qiymət və rəqabət şəraitinin münbitliyi ilə bağlı olur. Hesab edirik ki, büdcə xərclərinin, M2 pul aqreqatının, inflyasiya və manatın nominal mübadilə məzənnələrinin tənzimlənməsi və valyuta rejiminin makroiqtisadi siyasətin digər istiqamətləri üzrə zəruri əlaqələndirilməsinin təmin edilməməsi iqtisadiyyatın hər iki sektoru üçün, ilk növbədə isə rəqabətqabiliyyətlilik probleminin qiymət aspektləri üçün əsaslı problemlər yaradır.

**Valyuta məzənnəsi və xarixi ticarət**

Valyuta məzənnə siyasəti ilə məşğul olan bəzi iqtisadçılar real valyuta məzənnəsinin artırılmasını zəruri hesab edirdilər. Real valyuta məzənnəsinin artması ölkədən kapital axınının azalmasına, daxili və xarici investisiyanın artmasına, yeyinti, yüngül, maşınqayırma, kimya və s. sənaye sahələrinin müasir texnologiya əsasında yenidən qurulması və modernləşdirilməsi üçün maşın və avadanlıqların idxalına və beləliklə də iqtisadiyyatın strukturunun bazarın tələblərinə müvafiq olaraq uyğunlaşdırılmasına imkan verir və əhalinin real gəlirlərinin artmasına gətirib çıxarır. Real valyuta məzənnəsinin azalması isə iqtisadiyyatın qeyri səmərəli strukturunun saxlanılmasına, respublikanın inkişaf etmiş ölkələr üçün xammal istehsalçısı və ixracatcısına çevirir, iqtisadiyyatın kreditləşdirilməsinə mane olur. Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin təmin olunmasında valyuta məzənnəsinin rolunun qiymətləndirilərkən valyutaların da əmtəə kimi alınıb-satıldığını, onların da bazarlarda müəyyən bir dəyəri və qiyməti formalaşdığını görürük. Bu baxımdan qeyd olunanları müəyyən etmək üçün ilk növbədə idxal üzrə valyuta səbətini quraq.

**Cədvəl 4.**

**İdxal üzrə valyuta səbətinin strukruru və milli iqtisdiyyata keçidi (%)**

| | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| **Sərbəst dönərli valyuta (SDV) ilə hesablaşmalar** | 70.8 | 77.0 | 78.5 | 71.9 | 85.0 |
| **Qapalı valyuta üzrə hesablaşmalar** | 5.4 | 5.8 | 5.4 | 5.8 | 6.9 |
| **Digərləri** | 23.8 | 17.2 | 16.1 | 22.3 | 8.1 |

Mənbə: cədvəl https:stat.gov.az/ məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

İlk növbədə bildirək ki, idxal üzrə valyuta səbətinin strukruruna nəzər saldıqda bu ayrı-ayrı ölkələrdə daha konkret yəni, ABŞ dollarının, avronun və digər valyutaların məbləğini görmək mümkün olur. Azərbaycanın dövlət statistika kmitəsinin (DSK) məlumatlarında isə bu açıq aydın deyil. Ona görə də biz tədqiqatımızda sərbəst dönərli valyutanı ABŞ doları kimi qəbul edib və bu istiqamətdə təhlillər aparacağıq. Ümumiyyətlə, ölkənin idxal-ixrac əməliyyatları milli manatın mövqeyinə də təsir dərəcəsini müəyyən etmək üçün idxal-ixrac əməliyyatlarının manatla və dollarla dinamikasını nəzərdən keçirmək məqsədəuyğundur. Qeyd edək ki, idxal və ixrac məhsullarının manatla həcmi dövlət statistika komitəsinin milli hesablar sistemi üzrə statistik məlumatlardan götürülmişdir (cədvəl 5, 6).

**Cədvəl 5.**

**İdxalın dollar və manatla həcmi**

| | 2015 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| İdxal mln. dollarla | 9,216.7 | 8,783.3 | 11,465.9 | 13,667.5 | 10,730.7 |
| İdxal mln. manatla | 18, 927.9 | 29, 439.5 | 30, 098.8 | 30, 111.2 | 26, 414.3 |

Qeyd: cədvəl AR.DSK-nın milli hesabları sisteminin məlumatları tərtib olunub.

**Cədvəl 6.**

**İxracın dollar və manatla həcmi**

| | 2015 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| İxrac mln. dollarla | 12,729.1 | 15,320.0 | 19,489.1 | 19,635.2 | 13,740.6 |
| İxrac mln. manatla | 20,552.8 | 34,147.5 | 43,323.6 | 40,170.6 | 25, 854.9 |

Qeyd: cədvəl AR. DSK-nın məlumatları əsasında tərtib olunub.

Cədvəl 5 və 6 əsasında Azərbaycan Respublikasının idxalının manatla həcmini dollarla olan həcminə bölməklə, eləcə də ixracın manatla həcmini dollarla həcminə bölməklə şərti qəbul edib hesabladığımız valyuta məzənnəsini müəyyən edərək və onu dövlətin 2015-2020-ci illərdə müəyyən etdiyi rəsmi valyuta məzənnəsi ilə müqayisə etmək olar. Həm idxal üzrə, həm də ixrac üzrə hesabladığımız valyuta məzənnəsi bütün illərdə Mərkəzi bankın rəsmi müəyyən etdiyi valyuta məzənnəsindən fərqlənir. Başqa sözlə, 2015-ci ildə 1 ABŞ dolları həcmində olan ixracın məzənnəsi 1.61 manat təşkil etdiyi halda, həmin dövrdə Mərkəzi Bank 1 ABŞ dollarının məzənnəsini 1.56 manat səviyyəsində tutmuşdur. Beləliklə də 2015-ci il üçün hər bir dollarlıq ixrac məhsulu 0.05 manat zərərli olduğu görünür. Başqa sözlə valyuta məzənnəsi sahibkarların iqtisadi aktivliyi üçün əlverişli olmamışdır. Belə hal müvafiq olaraq 2015-2021-ci illər üzrə də davam etmişdir. Başqa sözlə, 2015-2021-ci illərdə də dövlət valyuta məzənnəsini nəzarətdə saxlamaq məqsədilə hər il valyuta bazarına müdaxilə edərək valyuta məzənnəsini nəzarətdə saxladığı aydın olur. Qeyd edək ki, 2015-ci ildə milli valyutanın devalvasiyasından əvvəl Mərkəzi Bankın rəsmi valyuta ehtiyyatlarının həcmi 14.2 mlrd. ABŞ dolları səviyyəsində olmuşdur. 2016-cı iləd bu məbləğ 4.4 mlrd. ABŞ dolları səviyyəsinə, 2017-ci ildə isə 4.3. mlrd. ABŞ dolları səviyyəsində olmuşdur. Son 2022-ci ilin əvvəlinə olan statistik məlumatlara əsasən Mərkəzi Bankın rəsmi valyuta ehtiyyatları 7.1 mlrd. ABŞ dolları səviyyəsindədir. Nəzərə almaq lazımdır ki, Mərkəzi Bank manatın məzənnəsini muəyyən həddə saxlamaq üçün müdamadi olaraq Neft Fondu ilə birlikdə valyuta bazarına müdaxilə edir.

Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin təmin olunmasında valyuta məzənnəsinin rolunun qiymətləndirilərəkən əsas məsələrdən biri də neft ixracatçısı ölkələrin vəziyyətinin təhlilidir. Daha dəqiq desək, neft ixrac edən ölkələrdə məzənnə rejimləri də rəqabətqabiliyyətliliyin müəyyən olunmasında önəmli paya malikdir. Buna görə də 19 neft ixrac edən ölkədə ümumdünya iqtisadi formun hazırladığı qlobal rəqabətqabiliyyətlik üzrə indekslə qeyd edilən ölkələrdə valyuta rejimlərini əlaqəsini göstərməyə çalışmışıq. Qeyd edilənlər bağlı neft ixrac edən ölkələrin istifadə etdiyi rejimlərə nəzər salaq. Belə ki, neft ixrac edən ölkələrin bir çoxunun iqtisadiyyatı müvafiq olaraq, daxili valyuta bazarları ixrac gəlirlərindən çox asılıdır. Böyük neft ixracatçısından olan yalnız altı ölkə BVF-nin məzənnə rejimlərinin təsnifatına uyğun olaraq üzən məzənnə rejimindən istifadə edir. Bunlara Böyük Britaniya, Norveç, Avstraliya, İndoneziya, Meksika, Kanada daxildir. Ümumdünya İqtisadi Forumunun (WEF) hesablamalarına görə, bu ölkələrin milli rəqabətqabiliyyətlik səviyyəsi olduqca yüksəkdir. Eyni zamanda, bildirək ki, Azərbaycanda ixracında əsas yeri yanacaq enerji məhsulları tutur. Bu baxımdan neft ixracının qeyd edilən ölkələrin iqtisadiyyatına təsiri böyükdür. Digər neft ixrac edən ölkələrin əksəriyyəti sərt müəyyən edilən və yumuşaq müəyyən edilən məzənnə rejimlərindən istifadə edirlər. Neft ixrac edən ölkələrin qlobal rəqabətqabiliyyətlik indeksi və valyuta rejimi ilə bağlı diaqrama aşağıdakı şəkildə verilmişdir.

**Şəkil 4.**

**Neft ixrac edən ölkələrin qlobal rəqabətqabiliyyətlik indeksi və valyuta rejimi arasında əlaqə**




Mənbə:Annual Report on Exchange Arrangements and Exchange Restrictions 2021 (www.imf.org), The Global Competitiveness Report 2021/ (/www.weforum.org)

Bildirək ki, 4-cü şəkildə 1 - əmsalı üzrə dairə şəkilli nöqtələr sərt fiksə edilmiş məzənnə (hard peg), 2 - əmsalı üzrə dairə şəkilli nöqtələr yumuşaq fiksə edilmiş məzənnə (Soft peg),3 - əmsalı üzrə dairə şəkilli nöqtələr üzən məzənnə (Floating rate) rejimini göstərir.

**Nəticə**

Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, inflyasiyanın və manatın nominal və real effektiv mübadilə məzənnələrinin səviyyəsi ixracın inkişafın baxımından səmərəli olmamışdır. Monetar siyasətlə fiskal siyasətin uclaşdırılmaması iqtisadiyyatın struktur sahələrin də səmərli fomalaşmasına iomkan vermir. Həmçinin, qeyd etmək lazımdır ki, qlobal rəqabətqabiliyyətlilik reytinqi ilə şəkildə göstərilən bütün ölkələr üçün istifadə edilən məzənnə rejimi arasındakı arasında güclü olmasa da, əhəmiyyətli tərs əlaqənin olduğunu görərik. Maraqlısı budur ki, rəqabət qabiliyyətlilik indeksi yüksək olan ölkə üzən valyuta rejimindən istifadə olunur. Belə ki, Malayziya rəqabətqabiliyyətlilik indeksinin bütün komponentlərində yaxşı nəticələr göstərir və üzən məzənnə rejimindən istifadə edir.

**Ədəbiyyat**

1. Третьякова Е. А., Носков А. А. Экономика Практикум Пермь 2020 с.291
2. Fuad Qənbərov Məzənnə siyasəti: yeni çağırışlar və imkanlar Bakı-2021 s.295
3. Q.C.İmanov, Y.H.Həsənli Azərbaycanın sosial iqtisadi inkişaf modelləri makroiqtisai Təhlil Bakı-2001 s.241
4. www.cbar.az
5. www.stat.gov.az
6. Annual Report on Exchange Arrangements and Exchange Restrictions 2021 (www.imf.org),
7. The Global Competitiveness Report 2021/ (/www.weforum.org)

***Э.Э.Зейналов***

***Оценка роли валютного курса в обеспечении конкурентоспособности национальной экономики***

***Резюме***

*Цель исследования - оценить роль валютного курса в обеспечении конкурентоспособности национальной экономики. Методология исследования – в работе использовались сравнительный анализ, логическое обобщение, системный подход, методы анализа и синтеза. Значимость применения исследования - фундаментальный анализ исследования может быть использован для достижения конкурентоспособности экономики страны и повышения экономической эффективности, регулирования валютных отношений. Результаты исследования - валютные курсы колеблются в зависимости от экономических и политических процессов во внешней торговле и на международной арене. Следовательно, эффективное использование обменного курса может стимулировать местное производство, так как эффективное использование обменного курса влияет на конкурентоспособность национальной продукции. Оригинальность и научная новизна исследования - расчет номинального и реального эффективных обменных курсов осуществлялся на основе индексов цен на импорт и экспорт.*

***Ключевые слова**: обменный курс, реальный обменный курс, индекс цен, конкурентоспособность, макроэкономическая сбалансированность, валютные режимы.*

***E.E.Zeynalov***

***Assessing the role of the exchange rate in ensuring the competitiveness of the national economy.***

***Summary***

*The purpose of the study is to assess the role of the exchange rate in ensuring the competitiveness of the national economy. Research methodology - comparative analysis, logical generalization, systematic approach, analysis and synthesis methods were used in the research work. Significance of the application of the research - the fundamental analysis of the research can be used to achieve the competitiveness of the country's economy and to increase economic efficiency, to regulate currency relations. The results of the study - exchange rates fluctuate depending on the economic and political processes in foreign trade and in the international arena. Therefore, the effective use of the exchange rate can stimulate local production, as the effective use of the exchange rate affects the competitiveness of national products. Originality and scientific novelty of the research - the calculation of the nominal and real effective exchange rates was carried out on the basis of price indices on imports and exports.*

***Keywords**: exchange rate, real exchange rate, price index, competitiveness, macroeconomic balance, currency regimes.*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***

***Daxil olub: 18.07.2022.***

***Çapa qəbul olunub: 27.07.2022.***